

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 12 sentyabr 2026-cı il | №63 (3065) | https://mod.gov.az | Qiyməti 30 qəpik


## Yeni tədris ili - vahid hədəf, vahid məqsəd - güclü ordu



*Xalqımızı müqəddəs zəfərlər ilə sevindirən, adı Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan şanlı ordumuz son illərdə qazandığı misilsiz qələbələrlə şəxsi heyətinin gücünü, peşəkarlığını və vətənpərvərliyini dünyaya nümunə olaraq sərgilədi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında əldə olunan tarixi qələbələrdən sonra Azərbaycan Ordusu öz inkişafının keyfiyyətcə tamamilə yeni, dinamik və müasir tələblərə cavab verən mərhələsinə qədəm qoydu. Bu gün də ordumuzun müasir dövrünün döyüşaparma və özünümüdafiə üsul və vasitələrini mənimsəməsi üçün təxirəsalınmaz işlər görülür.*

Görülən fəaliyyətlərin ən mühüm mərhələsi isə yeni tədris ilinin başlanması hesab olunur. Bu prosesin başlanması sadəcə təqvim dəyişikliyi deyil, yeni nailiyyətlərin, yüksək döyüş hazırlığının və ordu quruculuğunda planlaşdırılan hədəflərin reallaşdırılması üçün vacib bir start nöqtəsidir. Azərbaycan Ordusunda yeni tədris ilinin başlanması hərbi qulluqçuların nəzəri bilik və praktiki bacarıqlarının dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, döyüş hazırlığının daha da yüksəldilməsi və qarşıya qoyulan tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsi baxımından fundamental mərhələdir. Hər il keçirilən təlim-tədris prosesinin əsas məqsədi şəxsi heyətin nəzəri hazırlığını praktiki vərdişlərlə möhkəmləndirmək, bölmələrin idarə olunmasında çevikliyi artırmaq və istənilən şəraitdə qarşıya qoyulan vəzifələrin icrasına hazır olmaqdır.

Yeni tədris ilinin başlanması ənənəvi olaraq hərbi hissələrdə öz mötəbərliyi ilə seçilir. Plana əsasən, şəxsi heyətin tam tərkibdə sıra meydanında düzülməsi, döyüş bayrağının təntənəli şəkildə sıra meydanına gətirilməsi, hərbi orkestr tərəfindən Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi bu fəaliyyətlər planının əhəmiyyətini və vacibliyini ön plana çıxaran göstəricilərdəndir. Şəxsi heyətə qarşıda duran vəzifələrin, tapşırıqların çatdırılması ilə başlanan yeni tədris ili fəaliyyətləri şəxsi heyət üçün tədris prosesinin başlanğıcını və davamını ifadə edən mühüm mərasimlərdəndir. Sadalananlarla yanaşı, ssenariyə əsasən, hərbi qulluqçulara sıra baxışları keçirilir, təminat və təchizat vasitələri, o cümlədən maddi-tədris bazası, döyüş texnikası, silah və avadanlıqların varlığı, sazlığı və vəziyyəti yoxlanılır. Bu tədbirlər tədris prosesinin sistemli, intensiv və planlı şəkildə təşkilinə zəmin yaradır. Hərbi qulluqçuların hazırlığı ilə yanaşı, hərbi texnikanın, silah və avadanlıqların, təlim bazalarının, tədris vəsaitlərinin və digər təminat elementlərinin vəziyyətinin yoxlanılması bütöv sistemin hazırlığının qiymətləndirilməsinə imkan verir.

(Ardı 3-cü səhifədə)

## Ötən həftə zərərsizləşdirilən minaların və digər hərbi sursatların sayı açıqlanıb

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən 31 avqust-6 sentyabr tarixlərində icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC -a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 140, tank əleyhinə 28 mina və 1390 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 1706,4 hektar ərazi mina və partlamamış digər hərbi sursatdan təmizlənib.




## “Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir”

Bu gün Azərbaycan Silahlı Qüvvələri Qafqazda ən müasir və qüdrətli ordu hesab olunur. İkinci Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilikdir. Güclü və qüdrətli ordu dövlətin təhlükəsizlik sütunlarından biridir. Respublikamızın xarici və hərbi siyasət kursunun ən mühüm prioritetlərindən biri dövlətin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının etibarlı şəkildə qorunması, eyni zamanda, Azərbaycan Silahlı Qüvvələrinin müdafiə və döyüş qabiliyyətinin müasir standartlara uyğun olaraq davamlı şəkildə daha da gücləndirilməsidir.

(Ardı 2-ci səhifədə)



## “Hərbi dənizçilərimizin bir günü”



Səhər dənizin üzərində sakitlik hökm sürürdü. Sahildə həyat öz axarı ilə davam edir. Hərbi gəmidə isə gün çoxdan başlayıb. Sıra baxışı, bayrağın qaldırılması, təhlükəsizlik təlimatı, silah və texniki vasitələrin yoxlanılması - gün ərzində görüləcək işlərin hər biri müəyyən ardıcıllıqla həyata keçirilir.

Gəmidə keçirdiyimiz bir gün ərzində bu ardıcıllığın arxasında dayanan zəhməti, məsuliyyəti və peşəkarlığı yaxından müşahidə etmək imkanımız oldu. Hərbi Dəniz Qüvvələrinin “N” hərbi hissəsində olduğumuz müddətdə əsas məqsədimiz şəxsi heyətin gündəlik fəaliyyətini izləmək, gəmi həyatının görünən və görünməyən tərəfləri ilə tanış olmaq idi. Müşahidələrimiz göstərdi ki, burada gündəlik xidmətin adi görünən hər bir mərhələsi əslində döyüş hazırlığının ümumi sisteminin bir hissəsidir.

(Ardı 4-cü səhifədə)

## Şəhidlik - Vətənin əbədi yaşatdığı müqəddəs ad

Hər bir xalqın tarixində elə adlar var ki, zaman keçdikcə unudulmur, illər ötdükcə daha böyük məna qazanır. Bu adlar xalqın yaddaşında, tarixində xüsusi yer tutur. Şəhid adı da belə müqəddəs adlardan biridir. Şəhidlik yalnız bir insanın həyatını itirməsi deyil. Şəhidlik Vətən qarşısında borcun ən uca şəkildə yerinə yetirilməsi, xalqın azadlığı və torpağın bütövlüyü naminə canından keçənlərin ünvanıdır. Şəhid sözü ərəb mənşəli olub “şahid olan”, “şəhadət verən” mənasını daşıyır. İslam dünyagörüşündə şəhidlik yüksək mənəvi dəyər hesab edilir. Lakin zaman keçdikcə bu anlayış xalqımızın yaddaşında daha geniş məna qazanmışdır. Bizim üçün şəhid Vətənin müdafiəsi zamanı həyatını qurban verən, öz canını xalqının, torpağının və dövlətinin təhlükəsizliyi naminə fəda edən insandır.



(Ardı 5-ci səhifədə)

## Komando - döyüş təcrübəsindən yeni imkanlara



44 günlük Vətən müharibəsi Azərbaycan Ordusunda döyüş hazırlığı, idarəetmə və xüsusi təyinatlı bölmələrin fəaliyyətinin təşkili baxımından mühüm təcrübə formalaşdırdı. Müharibə zamanı mürəkkəb relyefdə, çətin hava və ərazi şəraitində, düşmənin müdafiəsinin dərinliyində fəaliyyət göstərən hərbi qulluqçuların çevikliyi, peşəkarlığı və yüksək hazırlığı yeni döyüş imkanlarının yaradılmasının vacibliyini bir daha göstərdi.

(Ardı 6-cı səhifədə)

## Azərbaycan-Özbəkistan arasında qərargah danışıqları keçirilib



Cari il üçün təsdiq olunmuş ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Azərbaycan və Özbəkistan respublikalarının Müdafiə nazirlikləri arasında "Hərbi əməkdaşlıq sahəsində perspektivlərin müzakirə edilməsi üzrə qərargah danışıqları" keçirilib.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüşdə hər iki ölkə arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan və Özbəkistan Müdafiə nazirlikləri arasında keçirilən görüşlərin iki ordu arasında təcrübə mübadiləsinə böyük töhfə verdiyi qeyd olunub.



Görüşdə "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında 2027-ci il üçün İkitərəfli Hərbi Əməkdaşlıq Planı"nın layihəsi müzakirə edilib.

# "Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir"

(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin 11 avqust 2026-cı il tarixində Naxçıvan Muxtar Respublikasına reallaşan növbəti səfəri və səfər çərçivəsində Azərbaycan Televiziyasına (AzTV) verdiyi çoxməzmunlu və tarixi müsahibə ölkəmizin hərbi-siyasi qüdrətini, regional təhlükəsizlik istiqamətindəki aparıcı rolunu və ordu quruculuğunda əldə olunmuş böyük nailiyyətləri bir daha bütün dünyaya nümayiş etdirdi. Naxçıvanın strateji coğrafi mövqeyi, burada yerləşən Əlahiddə Ümumqoşun Ordunun yüksək döyüş hazırlığı və regionda formalaşan yeni geostrateji reallıqlar fonunda dövlət başçısının səsləndirdiyi bəyanatlar Azərbaycan Silahlı Qüvvələrinin Cənubi Qafqazda əsas söz sahiblərindən biri olduğunu, eləcə də sülhün, sabitliyin sarsılmaz təminatçısına çevrildiyini qətiyyətlə bildirdi.





Ali Baş Komandan İlham Əliyevin müsahibəsində xüsusi vurğuladığı kimi, Azərbaycan Ordusunun keçdiyi inkişaf yolu, 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər və 2023-cü ilin sentyabrında həyata keçirilmiş uğurlu antiterror əməliyyatı təkcə torpaqlarımızın azad olunması ilə nəticələnməmiş, həm də Cənubi Qafqaz regionunda güclər nisbətini köklü şəkildə dəyişdirmişdir. Dövlətimizin başçısı açıq şəkildə bildirdi ki, bu gün bölgədə Azərbaycanın razılığı və iştirakı olmadan hər hansı hərbi-geosiyasi layihənin reallaşdırılması, yaxud xalqımızın milli maraqlarına zidd olan hər hansı təşəbbüsün irəli sürülməsi imkansızdır. Bu reallıq məhz rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı, yüksək peşəkarlığı və dövlətimizin malik olduğu sarsılmaz hərbi-texniki potensial sayəsində təmin olunmuşdur. Naxçıvanda verdiyi müsahibədə ölkə rəhbəri ordumuzun son illərdə daha da modernləşdirildiyini, ən müasir silah-sursat və döyüş texnikası ilə təchiz edildiyini, komando birliklərinin və xüsusi təyinatlı qüvvələrin sayının dəfələrlə artırıldığını diqqətə çatdırdı. Bu mütərəqqi addımlar göstərir ki, Azərbaycan postmüharibə dövründə də arxayınlaşmamış, əksinə, hərbi qüdrətini ən yüksək standartlar səviyyəsində saxlamaq üçün ardıcıl strategiya yürütmüşdür.

Naxçıvan Muxtar Respublikası istiqamətində müdafiə qabiliyyətimizin möhkəmləndirilməsi dövlətimizin hərbi strategiyasında hər zaman xüsusi yer kimi dayanır. Prezident İlham Əliyev müsahibəsində Naxçıvanın hərbi təhlükəsizliyinin ən yüksək səviyyədə təmin edildiyini, Əlahiddə Ümumqoşun Ordunun ən modern silah və sistemlərlə təchiz olunduğunu, hər an istənilən təxribatın və təhdidin qarşısını almağa qadir olduğunu bildirmişdir. Naxçıvan həm də Azərbaycanı Türkiyə və geniş mənada Türk dünyası ilə birləşdirən mühüm strateji platformadır. Dövlət başçısı qeyd etmişdir ki, Azərbaycan ilə Türkiyə arasında imzalanmış tarixi Şuşa Bəyannaməsinə müvafiq olaraq, hərbi sahədəki strateji müttəfiqlik münasibətləri Naxçıvanın da təhlükəsizliyini tam şəkildə sığortalayır. İki qardaş ölkənin hərbçilərinin Naxçıvan ərazisində mütəmadi olaraq keçirdiyi birgə təlimlər regionda hərbi balansı qorumaqla yanaşı, hər hansı revanşist qüvvəyə qarşı çəkindirici amil rolunu oynayır. Bu kontekstdə, Azərbaycan Silahlı Qüvvələrinin bölgədə söz sahibi olması yalnız güc nümayişi deyil, eyni zamanda, regional sülhün, təhlükəsizliyin və Zəngəzur dəhlizi kimi nəhəng kommunikasiya layihələrinin təhlükəsiz icrasının zəmanətidir.

Dövlət başçısının müsahibəsində diqqət yetirdiyi digər mühüm məqam isə Ermənistandakı revanşist meyillər və xarici qüvvələrin bu ölkəni yenidən silahlandırmaq cəhdləri ilə bağlı sərt və qətiyyətli xəbərdarlıqlar oldu. Prezident İlham Əliyev Azərbaycan Televiziyası vasitəsilə bəyan etdi ki, ölkəmizə qarşı hər hansı real təhdid, yaxud sərhədlərimizdə hərbi təxribat hazırlığı müşahidə olunacağı təqdirdə, Azərbaycan Silahlı Qüvvələri adekvat, sürətli və sarsıdıcı addımlar atacaqdır. Dövlətimizin başçısı vurğuladı ki, Ermənistanı silahlandıran və regionda yenidən gərginlik yaratmağa çalışan bəzi qərb dövlətləri bu siyasətin təhlükəli nəticələrini dərk etməlidirlər. Azərbaycan Ordusunun malik olduğu yüksək dəqiqlikli raket sistemləri, Pilotsuz Uçuş Aparatları (PUA) və müasir artilleriya vasitələri potensial düşmənin hər bir addımını anında zərərsizləşdirməyə tam imkan verir.

Müsahibədə həmçinin milli hərbi sənayenin inkişafı və yerli istehsal hesabına ordumuzun təchizatının artırılması məsələlərinə də toxunuldu. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan xarici ölkələrdən ən müasir hərbi texnika almaqla yanaşı, yerli



Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində də ən son texnologiyalara əsaslanan silah-sursat istehsalını kəskin şəkildə artırmışdır. Müdafiə sənayesinin inkişafı hərbi sahədə xarici asılılığı minimuma endirməyə, ordunun maddi-texniki təminatını iqtisadi cəhətdən tam dayanıqlı etməyə imkan verir. Dövlət başçısının qeyd etdiyi kimi, güclü iqtisadiyyat, yerli sənaye potensialı və yüksək vətənpərvərlik ruhu ilə silahlanmış ordu vahid bir qüvvə kimi dövlətimizin sarsılmazlığını təmin edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin 11 avqust 2026-cı il tarixində Naxçıvana səfəri də bu hərtərəfli inkişaf strategiyasının əyani təzahürüdür.

Azərbaycan Televiziyasına verdiyi tarixi müsahibə dövlətimizin milli təhlükəsizlik konsepsiyasının dözümlülüyünü və hərbi strategiyamızın nizamlılığını bir daha nümayiş etdirdi. Səsləndirilən fikirlər bir daha onu göstərdi ki, Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazda sabitliyin, sülhün və tərəqqinin ən etibarlı təminatçısıdır. Regionda hər bir siyasi və iqtisadi proses məhz Azərbaycanın hərbi və diplomatik gücü nəzərə alınaraq cərəyan edir. Ali Baş Komandanın uzaqgörən rəhbərliyi, xalqın ordusuna olan sonsuz inamı və ordumuzun yüksək peşəkarlığı sayəsində Azərbaycanın suverenliyi əbədi, sərhədlərimiz keçilməz, regiondakı söz sahibliyi isə sarsılmaz olaraq qalacaqdır.



Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir" fikri bu mənada həm ölkənin keçdiyi hərbi inkişaf yoluna verilən qiymət, həm də gələcəyə yönəlmiş mesaj kimi qəbul edilə bilər. Xüsusilə Naxçıvanda hərbi potensialın daha da gücləndiriləcəyinin bildirməsi Azərbaycanın təhlükəsizlik və özünümüdafiə siyasətində bu strateji bölgəyə verilən önəmi bir daha nümayiş etdirir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Yeni tədris ili - vahid hədəf, vahid məqsəd - güclü ordu

(Əvvəli 1-ci səhifədə)

Şəxsi heyətin peşəkarlığının artırılması, bölmələrin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və modern hərbi texnikanın mənimsənilməsi baxımından tədris ilinin hər bir mərhələsi müstəsna əhəmiyyət kəsb edir. Burada zəncirvarilik prinsipi ön plana çıxır ki, hər bir mərhələ bir-birini bağlayır və tamamlayır. Bir sözlə, yeni tədris ilinin fəaliyyətlər planı Azərbaycan Ordusunun bütün qoşun növlərində, hərbi hissə və birləşmələrində böyük ruh yüksəkliyi, hərbi intizam və yüksək məsuliyyət ilə yerinə yetirilir.



Müasir ordu üçün yüksək döyüş hazırlığı yalnız silah və texnikanın mövcudluğu ilə ölçülmür. Əsas məsələ həmin imkanlardan düzgün və səmərəli istifadə edə bilən, çevik qərar qəbul edən, kollektiv fəaliyyətə uyğunlaşan,



qarşılıqlı uzlaşmanı bacaran və qarşıya qoyulan tapşırığı dəqiq yerinə yetirən şəxsi heyətin formalaşdırılmasıdır. Müasir texnologiyalar ordunun imkanlarını genişləndirsə də, hərbi texnika və döyüş vasitələrinin mərkəzində yenə də insan amili dayanır. Yəni, ən aparıcı və modern döyüş vasitəsini də insan idarə edir.

Bunun üçün də müasir texnikanın səmərəli istifadəsi və təxirəsalınmaz tətbiqi onu idarə edən hərbi qulluqçunun fərdi və ya kollektiv hazırlığından, qərar qəbuletmə qabiliyyətindən, bir sözlə, peşəkarlığından asılıdır. Döyüş meydanında uğurun əsas şərtlərindən biri müxtəlif bölmələrin vahid məqsəd ətrafında ələqəli fəaliyyət göstərməsidir. Buna görə yeni tədris ilində komandirlərin çevik qərarvermə qabiliyyətinin inkişaf etdirilməsi, bölmələr arasında uzlaşmanın və qarşılıqlı fəaliyyətin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Hərbi qulluqçunun mənəvi-psixoloji hazırlığı, vətənpərvərlik hissi, xidmətə məsuliyyətli münasibəti və kollektiv qarşısında öhdəliklərini dərk etməsi də onun uğurlarına müsbət təsir edən mühüm amillərdəndir. Bunun üçün şəxsi heyət ilə təsdiq olunmuş günün nizam qaydalarına əsasən müxtəlif məşğələlər, məlumatverici və öyrədici fəaliyyətlər icra olunur. Azərbaycan Ordusunda tədris prosesinin əsas istiqamətlərindən biri məhz hərbi qulluqçuların peşəkarlığının və vətənpərvərliyinin artırılmasıdır. Sadalanan fəaliyyət də bu işin mühüm tərkib hissəsi kimi, sistematik olaraq təşkil olunur. Azərbaycan Ordusunda təlim-tədris prosesinin mühüm istiqamətlərindən biri şəxsi heyətin mənəvi-psixoloji hazırlığının möhkəmləndirilməsidir. Hərbi qulluqçunun mürəkkəb və gərgin şəraitdə soyuqqanlılığını qoruması, komandirin verdiyi tapşırığı düzgün anlaması və kollektivin digər üzvləri ilə qarşılıqlı etimad şəraitində fəaliyyət göstərməsi döyüş hazırlığının ayrılmaz hissəsi olaraq, burada ön plana çıxır. Bu baxımdan yeni tədris ili hərbi qulluqçuların yalnız peşəkar biliklərinin deyil, həm də məsuliyyət, intizam və komanda ruhunun möhkəmləndirilməsi üçün yeni imkanlar yaradır.

Son illərdə dünyada hərbi əməliyyatların xarakteri əhəmiyyətli dərəcədə dəyişib. Yeni texnologiyaların, pilotsuz uçuş aparatlarının, yüksək dəqiqlikli vasitələrin, müasir rabitə və idarəetmə sistemlərinin geniş tətbiqi ordular qarşısında yeni tələblər qoyur. Bu reallıq təlim prosesinin də daim yenilənməsini zəruri edir.

Azərbaycan Ordusunda keçirilən təlimlərdə müasir yanaşmaların tətbiqinə xüsusi diqqət yetirilir. Belə ki, döyüş əməliyyatları zamanı qazanılmış təcrübələr nəzərə alınmaqla, yeni hərbi yanaşmalar tətbiq edilir, müasir silah və texnikanın imkanlarından istifadə üzrə hərbi qulluqçuların nəzəri və praktiki hazırlığı artırılır. Yeni tədris ilində təlim və məşqlərin keyfiyyətinin artırılmasının, bölmələrin idarə edilməsində operativliyin yüksəldilməsinin və şəxsi heyətin praktiki vərdişlərinin təkmilləşdirilməsinin vacibliyi xüsusi qeyd olunur. Bu baxımdan hər bir təlim yalnız müəyyən bir hərbi normativin yerinə yetirilməsi deyil, eyni zamanda, real şəraitə mümkün qədər yaxın mühitdə düzgün qərar qəbul etmək və komanda daxilində qarşılıqlı fəaliyyəti təmin etmək bacarığının inkişaf etdirilməsi kimi qiymətləndirilə bilər. Bu yanaşma tədris prosesinin sadəcə nəzəri dərslərlə məhdudlaşmamasını təsdiq edir. Bu təcrübənin tədris proqramlarına inteqrasiyası ordunun real döyüş şəraitinə uyğun hazırlığının təmin olunması baxımından əhəmiyyətlidir. Çünki müasir hərbi hazırlığın əsas prinsiplərindən biri təlim şəraitinin mümkün qədər real vəziyyətə yaxınlaşdırılmasıdır. Təlim meydançalarında, poliqonlarda və müxtəlif vaxt, relyef və iqlim şəraitlərində keçirilən praktiki məşğələlər hərbi qulluqçuların əldə etdikləri bilikləri düzgün tətbiq etməsinə imkan yaradır. Beləliklə, nəzəri biliklə praktiki bacarıq arasında möhkəm əlaqə formalaşır.



Azərbaycan Ordusunun müasir inkişafında 44 günlük Vətən müharibəsində qazandığı təcrübə xüsusi əhəmiyyət daşıyır. Müharibə zamanı müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyət, çevik idarəetmə imkanlarından istifadə və döyüş şəraitində operativ qərar qəbuletmə ilə bağlı zəngin təcrübə əldə olunub. Sonrakı illərdə keçirilən tədris proseslərində də həmin təcrübədən istifadə olunması əsas istiqamətlərdən biri olub. Müdafiə Nazirliyinin əvvəlki illərə aid rəsmi məlumatlarında təlimlərin müxtəlif iqlim və relyef şəraitində, eləcə də gecə və gündüz saatlarında keçirilməsinin, müasir döyüş texnikası və silahların tətbiqi üzrə bacarıqların artırılmasının vacibliyi vurğulanıb.







Bu istiqamətdə keçirilən qərargah məşqləri, taktiki təlimlər və müxtəlif səviyyəli praktiki məşğələlər komandir heyətinin peşəkarlığının artırılmasına xidmət edir. Komandir üçün yalnız qərar qəbul etmək deyil, həmin qərarı vaxtında və düzgün şəkildə tabelikdə olan bölmələrə çatdırmaq, mövcud imkanları düzgün qiymətləndirmək və dəyişən vəziyyətə uyğunlaşdırmaq da vacibdir.



Yeni tədris ilinin başlanması hərbi kollektivlər üçün yalnız tədris prosesinin yenilənməsi deyil, həm də qarşıya yeni məqsədlərin qoyulması deməkdir. Hər bir yeni tədris ili hərbi qulluqçunun bilik və bacarıqlarını təkmilləşdirmək, peşəkarlığını artırmaq və qarşıya qoyulan tapşırıqları daha yüksək səviyyədə yerinə yetirmək üçün yeni imkanlar yaradır.

Hərbi xidmət daim inkişaf və hazırlıq tələb edən xüsusi fəaliyyət sahəsidir. Burada nəzəri biliklə praktiki bacarıq bir-birini tamamlamalıdır. Müasir döyüş şəraiti hərbi qulluqçudan yalnız fiziki hazırlıq deyil, həm də çevik düşünmə, düzgün qərar qəbul etmə, texnologiyalardan səmərəli istifadə və komanda şəraitində fəaliyyət göstərmək bacarığı tələb edir. Bu baxımdan yeni hərbi tədris ilində təlimlərin real vəziyyətlərə maksimum uyğunlaşdırılması mühüm əhəmiyyət daşıyır.

Tədris prosesinin əsas məqsədlərindən biri də şəxsi heyətdə məsuliyyət, intizam və qarşılıqlı etimad hissini möhkəmləndirməkdir. Çünki hərbi kollektivdə uğur yalnız ayrı-ayrı hərbi qulluqçuların hazırlığından deyil, onların vahid komanda kimi fəaliyyətindən asılıdır.

Yeni tədris ili həm də ötən dövrün nəticələrinin təhlili, mövcud çatışmazlıqların aradan qaldırılması və qarşıdakı dövr üçün daha yüksək hədəflərin müəyyənləşdirilməsi mərhələsidir. Əldə olunan hər yeni bilik, mənimsənilən hər bir bacarıq gələcək fəaliyyətin etibarlı təminatına çevrilir.

Bu mənada yeni tədris ilini sadəcə yeni təqvim mərhələsi kimi deyil, daha yüksək peşəkarlığa, daha möhkəm hazırlığa və daha böyük məsuliyyətə aparan yeni yolun başlanğıcı kimi qiymətləndirmək olar.

Yeni tədris ilində Azərbaycan Ordusunun bütün şəxsi heyətinə, zabit, gizir, çavuş və əsgərlərimizə məsuliyyətli və şərəfli xidmətlərində yeni-yeni müvəffəqiyyətlər arzulayırıq!

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*Reportaj*

# “Hərbi dənizçilərimizin bir günü”





(Əvvəli 1-ci səhifədə)

Gəmi komandiri baş leytenant Fərid Nadirlinin sözlərinə görə hər səhər şəxsi heyətə sıra baxışı keçirilir, Dövlət Bayrağı qaldırılır, təhlükəsizlik qaydaları ilə bağlı təlimat verilir, sonra silahların, texniki vasitələrin və digər sistemlərin vəziyyəti yoxlanılır. “Gündəlik fəaliyyətin hər mərhələsinin öz ardıcıllığı var. Əsas məqsəd gəmini daim hazırlıqlı vəziyyətdə saxlamaqdır. Bunun üçün həm şəxsi heyətin hazırlığı, həm də texniki vasitələrin vəziyyəti mütəmadi yoxlanılır”.

Şəki şəhərində anadan olan baş leytenant Fərid Nadirli 2017-2021-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil alıb. Xidmət müddətində müxtəlif təlim və səfərlərdə iştirak edib. 2022-ci ildə “Dəniz kuboku” yarışlarında üzən mina hədəfinə atəş üzrə birinci yerə layiq görülüb. Qazaxıstanda keçirilən “Birləşdik” təlimində iştirak edib. Onun danışdıqlarından aydın olurdu ki, gəmidə döyüş hazırlığı yalnız müəyyən edilmiş təlim saatlarında aparılan məşqlərlə məhdudlaşmır. Gündəlik işin özü də şəxsi heyətin hazırlığının bir hissəsidir. Gəminin “döyüşə” və “səfərə” hazırlanması, hava hücumundan müdafiənin təşkili, sualtı diversiya hücumlarına qarşı müdafiə üzrə məşqlər bu hazırlığın ayrı-ayrı istiqamətləridir.

Söhbətimizə baş leytenant Vüsal Şivəxanlı ilə davam edirik. Bir neçə ildir xidmət edən Vüsalın əsas vəzifəsi ümumi gəmi sistemlərinə nəzarətdir. 2023-cü ildə Türkiyədə ixtisasartırma kursunu uğurla başa vurub.

Dənizə çıxışdan əvvəl gəmidə aparılan hazırlıq işlərini soruşduqda o, texniki mərhələlərin ardıcıllığını izah etdi. Səfər və döyüş tapşırığı normativlərinə uyğun olaraq dizel-generator işə salınır, gəmi sahil cərəyan mənbəyindən ayrılaraq bort cərəyan mənbəyinə keçirilir. Texniki vasitələr enerji ilə təmin edilir və onların vəziyyəti yoxlanılır. Baş mühərriklər də səfərə hazırlıq vəziyyətinə gətirilir.

“Dənizdə hər bir texniki vasitənin işlək vəziyyətdə olması vacibdir. Hazırlıq zamanı hər bir detal yoxlanılır”, - deyə zabit bildirir.

Gəminin texniki bölməsinə keçdikcə söhbətin mahiyyəti daha aydın görünür. Burada mühərriklərin, mexanizmlərin və digər texniki qurğuların vəziyyəti daim nəzarətdə saxlanılır. Baş çavuş Elşən Qasımov mühərrikçilərin manqa komandiridir. On ildən artıqdır hərbi xidmətdədir və müxtəlif birgə təlimlərdə iştirak edib. Elşən üçün gəminin mühərrik bölməsindəki iş yalnız texniki vəzifələrin icrası deyil. Burada görülən işin birbaşa gəminin təhlükəsizliyi və fəaliyyət qabiliyyəti ilə bağlı olduğunu deyir. Bəzən xidmət günlərlə ailədən uzaqda qalmağı tələb edir. Lakin bu, hərbi qulluqçunun xidmətə münasibətini dəyişmir.



“Dənizdə xidmətin öz çətinlikləri var. Kollektivdə hər kəs öz işinə məsuliyyətlə yanaşanda mənəvi və fiziki çətinliklərin öhdəsindən asan gəlmək olur. Əsas odur ki, qarşımızdakı tapşırığı dəqiq yerinə yetirək”, - deyə baş çavuş E.Qasımov bildirir.

Həyəcan siqnalı zamanı isə gəmidə hərəkət daha da sürətlənir. Şəxsi heyət döyüş mövqelərinə keçir. Baş və köməkçi mexaniklər mexanizmlərin işə hazır olması barədə məruzə edirlər. Təlimlər zamanı dəfələrlə təkrarlanan bu hərəkətlər dəqiq işləyən mexanizm halına gəlir və həyəcan anında şəxsi heyətin vaxt itirmədən fəaliyyət göstərməsinə imkan verir.

Gəmidə diqqət çəkən məqamlardan biri də şəxsi heyətin qida təminatıdır. Mətbəxdə digər bölmələrdə olduğu kimi, özünəməxsus nizam hökm sürürdü. Ərzaqların keyfiyyəti yoxlanılır, sanitar-gigiyena qaydalarına əməl olunur, yeməklərin hazırlanması və təqdim edilməsi müəyyən tələblər əsasında həyata keçirilirdi. Kiçik çavuş Əli Camalzadə dörd ildir hərbi xidmətdədir və gəmidə aşpaz kimi fəaliyyət göstərir. Əli ilə söhbət zamanı məlum olur ki, onun iş günü mətbəxdə xüsusi geyim qaydalarına uyğun hazırlıqla başlayır. Papaq və əlcəkdən istifadə edilir, gündəlik ərzaq ehtiyatına baxış keçirilir. Gəmi heyətinə gündə üç dəfə - səhər, günorta və axşam qida verilir. Yeməklərin hazırlanmasında sanitar-gigiyena tələblərinə, bişirilmə dərəcəsinə və temperaturuna diqqət yetirilir.

“Gəmidə qidanın hazırlanması da müəyyən qaydalar əsasında aparılır. Ərzağın keyfiyyəti, yeməyin hazırlanması və təqdim olunması nəzarətdə saxlanılır. Şəxsi heyətin sağlam qidalanması xidmətin normal təşkili üçün vacibdir”, - deyə Əli Camalzadə bildirir.

Digər hərbi gəmidə isə baş leytenant Rəşad Eyyubov ilə söhbət edirik. Zabit Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və indiki Heydər Əliyev adına Hərbi İnstitutun məzunudur. Xarici ölkələrdə keçirilən təlim və səfərlərdə iştirak edib. Onun gündəlik fəaliyyətinə şəxsi heyətə ixtisas və idman hazırlığının keçirilməsi, komandir və rəislərinin tapşırıqlarının icrası daxildir. Söhbət zamanı Rəşad Eyyubovun da vurğuladığı əsas məqam hərbi nizam-intizam və qarşılıqlı məsuliyyət oldu.




Hərbi gəminin həyatında bəzən gözə görünməyən, lakin ümumi fəaliyyət üçün vacib olan işlər də var. Miçman Səfər Qasımov gündəlik fəaliyyətini günün nizam qaydasına uyğun qurur. Beş ilə yaxın xidmət təcrübəsi olan hərbi qulluqçu Səfər Qasımov da müxtəlif illərdə xarici səfər və təlimlərdə iştirak edib.

Baş takelajçı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu miçman Nazim Mikayılov ilə söhbət zamanı məlum olur ki, gəminin lövbər və qaldırıcı qurğularına cavabdeh sahələrdən birində xidmət edir. Lövbər zəncirlərinin və kəndirlərin vəziyyətinin yoxlanılması, qaldırıcı qurğuların zəncirlərinə gündəlik qulluq onun əsas vəzifələri sırasındadır. Nazim yeddi ildir hərbi xidmətdədir. Dəfələrlə təşəkkürnamə və təltiflərlə mükafatlandırılıb. Söhbət zamanı işinə münasibətindəki əminlik diqqət çəkirdi.

Gəminin səfərə hazırlığında daha bir mühüm istiqamət yanacaq təminatıdır. Baş leytenant Həsən Kərimli bu sahəyə cavabdeh hərbi qulluqçulardandır. 2002-ci il təvəllüdlü zabitin iki ali təhsili var. Ali hərbi təhsilini bitirdikdən sonra xaricdə MTT Akademiyasında təhsil alıb. Onun xidməti vəzifəsi Hərbi Dəniz Qüvvələrinin döyüş gəmilərinin və hərbi hissələrinin yanacaq-sürtkü materialları ilə təmin olunmasını, onların müəyyən olunmuş qaydalara uyğun saxlanılmasını və qorunmasını təşkil etməkdir.



“Yanacaq və sürtkü materiallarının təminatı da bu işin vacib hissəsidir. Burada dəqiqlik əsas şərtlərdən biridir”, - deyə zabit bildirir.

Gəmidə keçirdiyimiz saatlar ərzində müxtəlif vəzifələrdə xidmət edən hərbi qulluqçularla söhbət etdik. Bəzən gəmini sahildən seyr edən insan yalnız onun dənizdə hərəkətini görür. Halbuki həmin hərəkətin arxasında məsuliyyətli yanaşma, uzun hazırlıq dayanır. Mühərrikin işə salınması, texniki vasitələrin yoxlanılması, lövbər və kəndirlərə qulluq, yanacaq təminatı, mətbəxdə görülən işlər, şəxsi heyətin hazırlığı - bütün bunlar gəminin gündəlik həyatını təşkil edən mühüm istiqamətlərdir. “N” hərbi hissəsində apardığımız müşahidələr zamanı bir məqam xüsusilə diqqətimizi çəkdi: burada hərbi nizam-intizam yalnız qayda olaraq tətbiq edilmir, gündəlik fəaliyyətin təbii hissəsinə çevrilib. Hər kəs öz yerində, öz vəzifəsinin başındadır. Gəmidə bir gün keçirmək Hərbi Dəniz Qüvvələrində xidmətin yalnız dənizə çıxmaqdan ibarət olmadığını göstərir. Dənizdə hərəkət edən gəminin arxasında hazırlıq, bilik, texniki təminat və ən əsası, öz vəzifəsinə məsuliyyətlə yanaşan şəxsi heyət dayanır.

Günün sonunda gəmidən ayrılarkən yadda qalan yalnız dənizin sakit görüntüsü olmur. Onun daxilində eşidilən mühərrik səsləri, verilən komandalar, texniki vasitələrin yoxlanılması və öz işinin başında olan insanların sakit, nizamlı fəaliyyəti də bu günün yaddaşında qalır. Burada hər şey öz yerində və öz vaxtındadır. Çünki dənizdə gəminin etibarlı hərəkəti yalnız texniki imkanlarla deyil, həmin texnikanı idarə edən, ona nəzarət edən və qarşıya qoyulan tapşırığın məsuliyyətini daşıyan insanların peşəkarlığı ilə təmin olunur. “N” hərbi hissəsində keçirdiyimiz bir gün bizə bunu göstərdi: Hərbi Dəniz Qüvvələrində hazırlıq gündəlik həyatın ayrılmaz hissəsidir və hər yeni gün şəxsi heyətin növbəti tapşırığa hazır olması ilə başlayır.

**Emil MURADLI**
**“Azərbaycan Ordusu”**

*Şəhidlərimizin xatirəsi Vətən qədər əziz, Vətən qədər müqəddəsdir. Hər bir şəhidimizin uyuduğu məzar xalqımızın mənəviyyat dünyasının qibləgahı, and yeri, qürur duyacağı məkandır. Xalqımızın əsrlərə söykənən zəngin milli-mənəvi dəyərləri zaman-zaman şəhidlərimizin müqəddəs ruhları ilə təzələndi, şəhid qanı ilə Vətənimizin, dövlətimizin, ordumuzun şərəf tarixinə yeni-yeni səhifələr yazıldı. Qeyrət, ləyaqət, namus kimi xalqımızın milli heysiyyatını qanında, canında yaşadan və qəlbi Vətən üçün döyünən oğullar müqəddəs amal naminə canları qurban verdilər. Hər bir şəhid ömrü xalqımızın mənəvi dəyərlərinin yaşantısı, Vətənə, dövlətə, orduya sədaqətin, qəhrəmanlığın və ölməzliyin rəmzidir.*

*Heç kim unudulmur*

# Qəlbi Vətən üçün döyünən oğul

Vətən uğrunda şəhid olan oğullardan biri də Fərmandı. O, bu gün yaşasaydı, 36 yaşını qeyd edəcəkdi... Fərmanın Vətən üçün döyünən qəlbi 10 il öncə Aprel döyüşləri zamanı əbədi dayandı...

... Uzaqdan atəş səsləri gəlirdi. Düşmənin təxribat-diversiya qrupları ön xətdə yerləşən bölmələrimizi, yaşayış məntəqələrimizi müxtəlif növ silahlarla aramsız atəşə tuturdu. Cəbhə xəttində ağır döyüşlər gedirdi... Bu xəbər bir anın içində ölkəmizə yayıldı. Qəlbləri Vətən üçün, torpaq üçün döyünənlər bir yerdə qərar tuta bilmirdilər. Aidiyyəti qurumlara müraciət edənlər olduqca çox idi. Əli silah tutan da, tutmayan da döyüşən əsgərlərimizin yanında olmağa, onlarla çiyin-çiyinə döyüşməyə can atırdılar... O gün Fərman da qəlbi Vətən, torpaq üçün döyünənlərin sırasında idi. Onu cəbhəyə doğma Vətənə sevgisi, ana torpağa bağlılıq çəkirdi. Tələsirdi ki, torpaqlarımızı işğaldan azad edənlərin sırasında onun da adı olsun...



Fərman Elçin oğlu Əsədli 1990-cı il sentyabrın 10-da Gəncə şəhərində Vətənə, torpağa bağlı olan bir ailədə - hərbçi ailəsində dünyaya göz açmışdı. Samux rayon Sərkar kənd orta məktəbini bitirərək, Gəncə Dövlət Universitetinin "İqtisadiyyatın hüquqi tənzimlənməsi" ixtisasına yiyələnmişdi. İnsanda igidliyin əsası Vətənə, elinə, obasına sevgi ilə qoyulur. O sevgidən vətənpərvərlik hissi, mənəvi dəyərlər formalaşır. Vətənpərvərlik insanda fədakarlıq, yenilməzlik hissi yaradır, özünəinamı möhkəmləndirir və sonunda qəhrəmana çevrilir. Fərman da mənəviyyatı zəngin, milli-mənəvi dəyərlərə hörmət edən və onları qoruyan bir ailədə böyüyüb boya-başa çatmışdı... 2011-2012-ci illərdə Vətənə övladlıq borcunu sədaqətlə yerinə yetirmişdi. Vətən qarşısında müqəddəs borcunu başa vurub doğmalarının yanına dönərkən, komandirlərinə, əsgər yoldaşlarına "Torpaqlarımızın azadlığı uğrunda döyüşlərə birlikdə gedəcəyik" söyləmişdi. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə... Aprel döyüşlərinin başlandığı gün. Fərman o gün o yola qətiyyətlə, inamla çıxmışdı. Cəbhə xəttinə doğru irəliləyirdi... Yaxın qohumu Sadiq Əliyevlə birlikdə Tərtər rayonunun Şıxarx qəsəbəsinə çatdıqda dəhşətli bir səhnənin şahidi oldular. Qəsəbə ağır artilleriya atəşi altındaydı... "N" hərbi hissəsinin qərargahında onlara ordunun köməyə ehtiyacı olmadığını bildirərək, güclü atəş altında olan ərazini tərk etmələrini israrla xahiş etdilər... Lakin onlar döyüş gedən ərazini tərk edib getməyi milli qürurlarına sığışdırmayıblar. Fərman və Sadiq orada olan mülki vətəndaşların düşmənin hədəfində olan ərazidən çıxarılması yardım məqsədilə onları daşımağa kömək ediblər.

Şəhidin atası Elçin Əsədov həmin günün acı xatirələrini danışarkən qeyd etdi ki, döyüşlərin başlandığı birinci gün - aprelin 2-də ərazidə telekanallarımız çəkilişlər aparıblar. "O zaman fəaliyyət göstərən bir televiziya kanalının Tərtərdən - cəbhə xəttindən hazırladığı kadrlara Sadiq və Fərman da düşüb. Fərmangil ərazini tərk etməyərək düşmən mərmisi düşən yerlərdə yaralanan mülki şəxslərin olub-olmadığını öyrənmək üçün gözləyib və onları xəstəxanaya çatdırmağa yardım ediblər".

Şəhidin yaxın qohumu Sadiq bu ağrılı hadisələrə şahid olduğunu söyləyir: "O əraziyə düşmən çoxlu sayda mərmilər yağdırmışdı. Yaralılar vardı. Fərman "Yenidən gedək görək yaralı qaldımı", - dedi və "Niva"yla geri qayıtdıq.

Zabit Mübariz Rəhimov Aprel döyüşlərinin birinci günündə baş vermiş o ağır və faciəli hadisəni belə xatırlayır: "Şıxarxda yerləşən qum-çınqıl karxanasının təxminən 500 metrliyini keçdikdən sonra düşmənin "D-30" top mərmisi avtomaşının yaxınlığına düşdü. Maşının ön hissəsində əyləşən Sadiq və Fərman ağır yaralandı. Mən isə heç bir zədə almadım. Sadiq özü ağır yaralanmasına baxmayaraq, Fərmanı təcili Tərtər xəstəxanasına çatdırdı. Həkimlərin səylərinə baxmayaraq Fərmanın həyatını xilas etmək mümkün olmadı".

Qəlbi Vətən üçün döyünən, torpaqlarımızın azadlığı üçün yola çıxan, mövzu "Vətəndirsə, gerisi təfərrüatdır", - deyən Fərman Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tam təmin olunmasını görməsə də, onun yolu gənclərə örnək oldu. Döyüşən hərbçi qardaşlarının yanına tələsən, ruhu ilə onlara bağlı olan, əməli ilə xalq-ordu birliyinin nümunəsi sayılan vətənsevər oğullardan biri olan Fərman mülki geyimdə getdiyi döyüş bölgəsində şəhadətə ucaldı. Xatirə adlı bir qız övladı Vətənə əmanət qaldı.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə Fərman Əsədli (ölümündən sonra) "Şücatə görə" medalına layiq görülüb. Medal şəhidin atası Elçin Əsədova təqdim olunub.

Ehtiyatda olan polkovnik-leytenant Elçin Əsədov görüşlərin birində "Bir ata olaraq oğlum kimi oğullarla fəxr edirəm. Qəlbim onun Vətən sevgisiylə daim mənəvi rahatlıq tapacaq", - söyləmişdi...

Övlad acısına dözə bilməyib dünyasını dəyişən Xatirə ana isə bir zaman "Şəhidlər üçün son yoxdur, sonsuzluq var. Məzar daşına şəhid adı yazdırmaq şərəfdir!", - demişdi...

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Şəhidlik - Vətənin əbədi yaşatdığı müqəddəs ad

**(Əvvəli 1-ci səhifədə)**

Şəhidlik haqqında danışarkən, ilk növbədə, insan həyatının mənasını, dəyərini düşünürük. Çünki Vətən uğrunda canından keçən hər bir insanın arxasında bir ömür, bir ailə, arzular, xəyallar və yarım qalan gələcəyi var. Onların uşaqlıq xatirələri, sevdikləri, ailələri, dostları, gələcəklə bağlı planları olub. Lakin Vətənin təhlükəsizliyi üçün ən ağır məqamda öz həyatlarından daha böyük bir məsuliyyəti üstün tutublar.

Ölüm anına yaxın insan öz həyatını qorumaq istəyir. Bu, təbii hissdir. Ancaq Vətənin taleyi təhlükə qarşısında qalanda özünü deyil, torpağını düşünmək böyük mənəvi iradə tələb edir. Şəhidlər bu iradənin ən yüksək nümunəsini göstərirlər.

Azərbaycan tarixinin müxtəlif dövrlərinə nəzər saldıqda Vətən uğrunda canından keçən insanların çox olduğunu görürük. Hər birinin taleyi fərqli olsa da, onları birləşdirən əsas məqam eynidir - Vətənə bağlılıq. Bəziləri döyüş meydanında, bəziləri sərhəd xəttində, bəziləri isə xidməti vəzifələrini yerinə yetirərkən həyatını itirib. Onların adları xalqın yaddaşında eyni ehtiramla yaşadılır.

Şəhidlik anlayışının böyüklüyü həm də ondadır ki, şəhidin ölümü ilə onun həyatı bitmiş hesab olunmur. Əksinə, şəhidin adı yeni bir yaddaşın başlanğıcına çevrilir. Onun adı ailəsində, doğulduğu kənddə və şəhərdə, xidmət etdiyi hərbi hissədə, təhsil aldığı məktəbdə, dostlarının xatirələrində yaşayır. Zaman keçdikcə şəhid haqqında danışılan hər bir söz onun həyatının yeni nəsillərə çatdırılmasına xidmət edir.




Şəhidlərin xatirəsini yaşatmaq yalnız onların adını çəkməkdən ibarət deyil. Əslində, şəhidin xatirəsinə ən böyük ehtiram onun uğrunda canından keçdiyi dəyərləri qorumaqdır. Vətənə sədaqət, dövlətə bağlılıq, hərbi xidmətə məsuliyyətlə yanaşmaq, torpağa sahib çıxmaq və xalqın birliyini qorumaq şəhidlərin bizə qoyduğu mənəvi mirasın əsas hissəsidir.

Şəhid ailələri isə bu müqəddəs adın ağrısını hər gün öz həyatlarında daşıyırlar. Şəhidin anası üçün oğlu, atası üçün evdən çıxan son baxışı, həyat yoldaşı üçün həyatının ən doğma insanı, övladı üçün isə hər vaxt tam yaşaya bilmədiyi ata sevgisidir. Buna görə şəhid ailələrinə göstərilən diqqət və qayğı sadəcə sosial məsuliyyət deyil, həm də mənəvi borcdur.

Şəhidlər haqqında danışarkən onları yalnız döyüş səhnələri ilə xatırlamaq da doğru olmaz. Çünki şəhidin həyatında döyüşdən əvvəlki illər, ailəsi, təhsili, əsgərlik yolu, dostları və insanlarla münasibətləri də mühüm yer tutur. Hər bir şəhidin arxasında ayrıca bir həyat hekayəsi var. Bu hekayələri öyrənmək şəhidlərimizi daha yaxından tanımağa imkan verir.

Şəhidlər arasında müxtəlif peşə və xarakterə malik insanlar olub. Kimisi hərbi məktəbdə təhsil alıb, kimisi hərbi xidmət zamanı peşəkar hərbçi kimi formalaşıb, kimisi isə müxtəlif sahələrdə çalışdıqdan sonra ordu sıralarında xidmət edib. Onları bir araya gətirən isə Vətən qarşısında məsuliyyət hissi olub.

Şəhidlik həm də gənc nəsil üçün böyük tərbiyə məktəbidir. Gənclər şəhidlərin həyatını öyrənməklə Vətən sevginin yalnız sözlərdən ibarət olmadığını anlayırlar. Vətəni sevmək onun tarixini bilmək, dövlətini qorumaq, qanunlarına hörmət etmək, öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirməkdir.

Azərbaycan əsgəri üçün şəhidlik anlayışının xüsusi mənası var. Hərbi xidmət yalnız silah daşımaq və döyüş hazırlığı keçmək deyil. Bu xidmət Vətənin təhlükəsizliyinə görə məsuliyyət daşımaq deməkdir. Hərbi qulluqçular öz xidmətlərini layiqincə yerinə yetirməklə həm dövlət qarşısında andına, həm də şəhidlərin müqəddəs xatirəsinə sədaqət göstərirlər.

Bu baxımdan şəhidlik yalnız keçmişə aid anlayış deyil. O, bu gün də cəmiyyətimizin mənəvi dəyərləri sırasında yaşayır. Şəhidlərin adı çəkiləndə insanlar yalnız onların son döyüşünü deyil, Vətən üçün göstərdikləri fədakarlığı xatırlayırlar. Şəhidlər bizə bir daha göstərir ki, Vətən anlayışı insan üçün doğulduğu evdən, ailədən və doğma torpaqdan başlayaraq böyük bir mənəvi bağlılığa çevrilir.

Torpaq uğrunda canından keçən insanın adı həmin torpağın yaddaşına yazılır. Buna görə də onların məzarları sadəcə bir məzar deyil. Onlar tariximizin canlı səhifələridir. Hər bir məzar bir nəslin xatirəsini, bir xalqın mübarizə yolunu özündə yaşadır. Şəhidlər xiyabanları isə xalqın öz övladlarına ehtiramını ifadə edən müqəddəs məkanlardır. Şəhidlərin xatirəsinin qorunması gələcək nəsillər qarşısında da məsuliyyətdir. Çünki tarix yalnız kitab səhifələrində yaşamır. Tarix həm də insanların yaddaşında iz buraxır. Əgər biz şəhidlərimizin həyatını, onların Vətən qarşısında xidmətlərini və fədakarlıqlarını gələcək nəsillərə çatdırsaq, həmin yaddaş daim yaşayacaq.

Bu gün şəhidlərimizin adını ehtiramla çəkmək, onların ailələrinə qayğı göstərmək və həyat yollarını gənclərə tanıtmaq hər birimizin mənəvi borcudur. Çünki şəhidlər Vətənin ən ağır günündə onun müdafiəsinə qalxaraq öz həyatlarını xalqın gələcəyinə həsr ediblər.

Şəhidlik haqqında danışmaq çətindir. Çünki bu sözün içində həm qürur, həm kədər, həm də böyük məsuliyyət var. Şəhidlər həyatlarını Vətənə verdilər, bizə isə onların xatirəsini yaşatmaq düşür. Onların adlarını yadda saxlamaq, həyat yollarını öyrənmək və gələcək nəsillərə çatdırmaqla şəhidlərimizi yaşatmış oluruq. Çünki insan ömrü sona çata bilər, amma Vətən uğrunda verilən ömür xalqın yaddaşında əbədi olaraq qalır. Şəhidlik də məhz bu əbədiyyətin adıdır.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

# Naxçıvanda gənclərin əsgərlərlə görüşü





*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı və Əlahiddə Ümumqoşun Ordunun dəstəyi ilə bir qrup könüllü gəncin hərbi hissələrdən birinə ziyarəti təşkil olunub. Gənclər hərbi qulluqçularla görüşüb, onlar üçün yaradılmış şəraitlə tanış olublar.*




Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, ordu mənsubları İntiqam Ağasiyev və Mansur Mahmudov çıxış edərək, Azərbaycan Ordusunun peşəkarlığından, yüksək döyüş hazırlığından və hərbi xidmətin gənclərin formalaşmasında rolundan danışıblar. Nazirliyin əməkdaşı Valeh Mahmudov isə gənclərin vətənpərvər ruhda tərbiyəsinin və milli dövlətçilik dəyərlərinə sədaqətinin möhkəmləndirilməsinin əsas prioritetlərdən olduğunu bildirib. Bu istiqamətdə hərbi hissələrə ziyarətlərin və əsgər-zabitlərlə görüşlərin əhəmiyyətini vurğulayıb.

Görüş çərçivəsində hərbi texnika və silahlara baxış keçirilib, onların texniki xüsusiyyətləri barədə məlumat verilib. Qonaqlar əsgərlərimizin əlbəyaxa döyüş və fiziki hazırlıq elementlərindən ibarət nümunəvi çıxışlarını izləyiblər.

Sonra ölkəmizin müasir hərb tarixinin əks olunduğu muzey və kitabxana ziyarət edilib. İştirakçılar hərbi qulluqçuların məişət şəraiti ilə tanış olublar.

Sonda gənclər əsgərlərimizlə birgə nahar edib, xatirə şəkilləri çəkdiriblər.





# Komando - döyüş təcrübəsindən yeni imkanlara




(Əvvəli 1-ci səhifədə)

Məhz bu təcrübə müharibədən sonrakı dövrdə Azərbaycan Ordusunda komando hərbi hissələrinin yaradılmasına əsas verən amillərdən biri oldu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə Müdafiə Nazirliyinin Quru Qoşunlarının tərkibində Komando hərbi hissələrinin yaradılmasına başlanıldı. Qarşıya qoyulan əsas məqsəd müxtəlif relyef və şəraitlərdə tapşırıqları müstəqil və çevik şəkildə yerinə yetirə bilən, yüksək fiziki və taktiki hazırlığa malik şəxsi heyətin formalaşdırılması idi. Bu istiqamətdə ilk mühüm addım 24 dekabr 2021-ci ildə Xocavənd rayonunun Hadrut qəsəbəsində ilk komando hərbi hissəsinin yaradılması ilə atıldı. Hərbi hissənin açılışında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iştirak etdi. Dövlət başçısı komando bölmələrinin yaradılmasının Azərbaycan Ordusu üçün yeni istiqamət olduğunu bildirərək, bu hərbi hissələrin sayının artırılacağını diqqətə çatdırdı. Hadrutda əsası qoyulan komando quruculuğu qısa müddət ərzində genişləndirildi. 26 iyun 2022-ci ildə Silahlı Qüvvələr Günü münasibətilə Kəlbəcərdə yeni komando hərbi hissəsinin açılışı keçirildi və hərbi hissəyə Döyüş Bayrağı təqdim edildi. Azad edilmiş ərazilərdə yaradılan bu tipli hərbi hissələr həm yeni hərbi infrastrukturun formalaşdırılması, həm də şəxsi heyətin mürəkkəb dağlıq relyefdə fəaliyyət imkanlarının artırılması baxımından əhəmiyyət daşıyırdı.

Komando bölmələrinin inkişafı yalnız yeni hərbi hissələrin yaradılması ilə məhdudlaşmadı. Şəxsi heyətin hazırlıq sistemi də qarşıya qoyulan döyüş tapşırıqlarının xüsusiyyətlərinə uyğun quruldu. Komandoların hazırlığında fiziki dözümlülük, atəş, taktiki və xüsusi hazırlıq mühüm yer tutur. Manevrlər zolağının keçilməsi, dağçılıq, kəndirlə enmə, helikopterlərlə yerdəyişmə, müxtəlif relyeflərdə hərəkət, gecə təlimləri və taktiki fəaliyyətlər şəxsi heyətin mürəkkəb şəraitdə fəaliyyət imkanlarını artırır. Bu hazırlığın əsas xüsusiyyəti məşğələlərin mümkün qədər real döyüş şəraitinə yaxınlaşdırılmasıdır. Hərbi qulluqçular kəskin relyefli ərazilərdə hərəkət edir, müxtəlif üsullarla yerdəyişmələr həyata keçirir, verilən tapşırıqlar əsasında taktiki qərarlar qəbul edir və atıcı silahlardan istifadə bacarıqlarını təkmilləşdirirlər. Belə hazırlıq komandoların yalnız fiziki baxımdan deyil, həm də psixoloji və taktiki baxımdan mürəkkəb vəziyyətlərə hazır olmasını təmin edir.



Keçirilən intensiv təlimlərdə formalaşdırılan döyüş vərdişləri real əməliyyat şəraitində də özünü doğrultdu. 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən antiterror əməliyyatı zamanı Azərbaycan Ordusunun bölmələri qarşıya qoyulan tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirdi. Qısa müddətdə keçirilən əməliyyat nəticəsində Azərbaycan Respublikasının suverenliyinin tam bərpası təmin edildi.

Döyüş təcrübəsinin və intensiv hazırlığın nəticəsi olaraq əldə olunan imkanlar komando bölmələrinin sonrakı inkişafında da mühüm amilə çevrildi. Əldə edilən təcrübə hazırlıq proqramlarının daim təkmilləşdirilməsinə, şəxsi heyətin müxtəlif ssenarilər üzrə məşq etdirilməsinə və yeni hərbi hissələrin formalaşdırılmasına zəmin yaratdı.

Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan komando hərbi hissələrinin açılış mərasimində Döyüş bayraqları təqdim olundu. Bu, komando bölmələrinin strukturunun genişləndirilməsi ilə yanaşı, Azərbaycan Ordusunda formalaşdırılan komando hazırlığı məktəbinin müxtəlif hərbi birliklərdə tətbiqinin davam etdirildiyini göstərdi. Bu gün komando bölmələri Azərbaycan Ordusunun döyüş imkanlarının artırılmasına xidmət edən mühüm istiqamətlərdən biridir. Hadrutda başlayan proses sonrakı mərhələlərdə digər ərazilərdə yaradılan hərbi hissələrlə genişləndirilib, Naxçıvanda yeni hissələrin yaradılması ilə davam etdirilib.

Komando hazırlığının mahiyyətində bir prinsip dayanır: mürəkkəb şərait tapşırığın icrasına maneə deyil, hazırlığın sınağıdır. Bu baxımdan hər bir təlim, hər bir maneə və hər bir taktiki məşğələ şəxsi heyətin real döyüş şəraitində daha çevik və dəqiq fəaliyyət göstərməsinə hesablanır. Azərbaycan Ordusunun komando bölmələrinin inkişafı müasir döyüş tələblərinə uyğunlaşan, əldə olunan təcrübəni hazırlıq prosesinə tətbiq edən və qarşıya qoyulan tapşırıqların icrasına daim hazır olan hərbi birliklərin formalaşdırılması istiqamətində davamlı prosesdir. Bu yolun əsas nəticəsi isə daha hazırlıqlı, daha çevik və müxtəlif döyüş şəraitində fəaliyyət göstərə bilən Azərbaycan Ordusunun gücləndirilməsidir.

**Leytenant
Tamilla HÜSEYNLİ
“Azərbaycan Ordusu”**

# İdrak savaşları ilə effektiv mübarizə: milli-mənəvi dəyərlərə sevgi və vətənpərvərliyin qüdrəti

*Bu mövzuda dərc edilmiş yazılarda idrak savaşlarının bəzi aspektlərindən ətraflı bəhs edilmişdir. Həyatımızın bütün sahələrinə müdaxilə etmək imkanına malik bu savaşların növbəti istiqamətlərini təhlil edərkən, ilk növbədə, qeyd etməliyik ki, əvvəlki illərdə psixoloji əməliyyatlar və “informasiya qarşıdurması” adı altında aparılan proseslər artıq yeni metodlarla və adlarla meydana çıxıb.*

İdrak savaşları və ya koqnitiv müharibə əməliyyatları mərhələlərlə, asta-asta, çox zaman gözəgörünməz, lakin son dərəcə mürəkkəb və sərhəd tanımayan üsullarla həyata keçirilir. Adının dəyişməsinə baxmayaraq, bu əməliyyatların mahiyyəti və məqsədləri əsla dəyişməyib, sadəcə olaraq yeni istiqamətlər, forma və metodlar əlavə edilib.

İnsan zehninə yönəlik koqnitiv müharibə əməliyyatları yeni döyüş üsuludur və bu sahənin sürəti ilə miqyası genişləndikcə külli miqdarda vəsait xərclənir. Beyinlərə təsir metodlarını qarşıya məqsəd qoyan layihələrin maliyyələşdirilməsinə üstünlük verilir. Öz maraqlarını təmin etmək üçün rəqib dövlətlər artıq silaha, texnikaya və ya hərbi obyektlərə fiziki təsir göstərən vasitələrdən deyil, daha çox idraka, zehnə və düşüncə tərzinə yönəlmiş "silahlar" yaratmağa can atırlar.

Müasir mərhələdə dağıdıcı silahların yerini internet, rəqəmsal texnologiyalar, süni intellekt və neyroşəbəkələr tutmağa başlayıb ki, bu da idrak savaşlarının effektivliyini hədsiz dərəcədə yüksəldir. Onu da qeyd edək ki, idrak müharibələri üçün istifadə edilən bu "silahlar" ənənəvi döyüş texnikasından heç də az məhvetmə gücünə malik deyil; əksinə, onların yaratdığı qeyri-stabillik şəraitinin dağıdıcı potensialı ağlasığmaz dərəcədə yüksəkdir.

Buna misal olaraq reklamlar, neyroşəbəkə və süni intellekt vasitəsilə müəyyən qrupların və ya ayrı-ayrı fərdlərin izlənilməsini göstərmək olar. Lazımi məlumatlar toplandıqdan sonra ehtiyaclar və prioritetlər nəzərə alınır, toplumun və ya fərdlərin şüurlarına ünvanlı təsir metodları işə düşür. İnsan fəaliyyətinin az qala 50-70 faizinin internet üzərindən həyata keçirilməsi informasiya texnologiyalarının və kommunikasiya vasitələrinin qlobal səviyyədə məlumat monitorinqini, toplanmasını və sistemləşdirilməsini min dəfələrlə asan edir, tezləşdirir. İndiki dövrdə elmi-tərəqqi sayəsində icad edilən vasitələr təkcə kommersiya məqsədləri üçün deyil, həm də sosial şəbəkələr üzərindən seçki proseslərinə təsir etmək, hər hansı ölkə rəhbərliyinin işgüzar imicinə xələl gətirmək və ya onu nüfuzdan salmaq kimi siyasi hədəflər üçün də unikal potensial yaradıb.

Ən qorxulusu odur ki, gələcəkdə müasir texnologiyalar sayəsində ölkə əhalisinin böyük əksəriyyətini təsir altına alaraq manqurt-zombilər kütləsi yetişdirmək artıq reallığa çevrilir. Bu prosesə digər innovasiyalarla yanaşı, son illərdə aparılan sınaqlar nəticəsində böyük irəliləyiş əldə edilmiş beyin-çip texnologiyası da öz "töhfəsini" verəcək. Elmə məlumdur ki, insan beyni maqnit impulslar və səs tezlikləri vasitəsilə bədəndəki bir çox prosesləri idarə edir. Sözdə guya yalnız humanitar məqsədlər - müəyyən xəstəliklərin müalicəsi üçün nəzərdə tutulmuş bu texnologiyalar əslində maqnit impulsları və titrəyişlər ötürməklə beynin funksiyalarını stimullaşdıra, yeni, azalda və ya çoxalda biləcək. Bu gün və ya gələcəkdə heç kim təminat verə bilməz ki, həmin çiplər hərbi məqsədlər üçün istifadə edilməyəcək. Beyin-çip texnologiyalarının hərbi perspektivləri ciddi şəkildə ictimaiyyətdən gizlədilsə də, müəyyən dairələr bundan xəbərdardır. Yaxın gələcəkdə çiplərə müdaxilə etməklə impulsları dəyişdirmək və insan beyninin aqressiv funksiyalarını gücləndirmək vasitəsilə bu texnologiyanı daşıyan kütlələri “idarə olunan zombilərə” çevirmək mümkün olacaqdır. Hətta bədənində bu tip çiplər gəzdirən insanlar üzərində "android" tipli rabitə əlaqələrinin yaradılması imkanları ilə bağlı geniş elmi araşdırmalar aparılır. Bu gün bizə adi görünən və mobil telefonlarımızda gündəlik istifadə etdiyimiz qrupları gələcəkdə çiplər sayəsində artıq birbaşa beyinlərimizdə yaratmaq mümkün olacaqdır.




İdrak savaşlarının daha bir istiqaməti insan sayının süni şəkildə azaldılmasına və qeyri-ənənəvi münasibətlərin təşviqinə yönəlib. Kimyəvi və bioloji metodlarla yanaşı, bu məsələnin həllinə koqnitiv əməliyyatlar da cəlb edilib (səngiməyən qanlı münaqişələr, süni viruslar, pandemiya təlatümləri və s.). Transmilli aktorların addımları sayəsində yaradılan maddi, mənəvi və psixoloji baryerlər çoxuşaqlı ailələrin sayını sürətlə azaldır ki, bununla da məqsəd insan artımını nəzarətdə saxlamaqdır.

Müasir dövrdə bir neçə övlad dünyaya gətirməyin və böyütməyin mənəvi borc və ya rasional addım olmadığını təbliğ edən fikirlərin yayılması nəticəsində insanların beyninə səpilmiş şübhə toxumaları çoxdan cücərib və bəhrəsini verir. Çoxuşaqlı ailələrlə zəngin olan Şərq və müsəlman ölkələrində uşaq sayının sürətlə azaldığını görmək kifayətdir. Təməlləri ailə münasibətləri və qohumluq bağları üzərində qurulan cəmiyyətlər üçün bu, ən böyük təhlükələrdən biridir.

"Özüm üçün yaşayım, sonra övlad barədə düşünərəm" kimi yanaşmaların normal həyat tərzi kimi təşviq olunması nəticəsində milyonlarla insanın psixologiyasında məhz bu ideyalar hökm sürür. Sadə insanlarla yanaşı, maddi imkanları yüksək olan şəxslər də gənc yaşda övlad sahibi olmaqdan çəkinirlər. Yaşa dolduqca isə müxtəlif bəhanələrlə ailələr, ümumiyyətlə, övlad sahibi olmaq fikrindən vaz keçirlər.

Bu proseslərdə geni modifikasiya olunmuş məhsulların ticarəti və insanların bu tip ərzaqlarla qidalanması müəyyən rol oynasa da, əsas problem ailələrin psixoloji durumudur. Həyəcan, stres, maddi vəziyyəti yaxşılaşdırmaq üçün daima çalışmaq məcburiyyəti, gündəlik tələbatları ödəmək üzündən yaranan yorğunluq və ruhi narahatlıq övlad sahibi olmaq düşüncəsinə mənfi təsir göstərir. Nə qədər kədərli olsa da, bu gün maddi rifah halı ailədaxili münasibətlərin tənzimlənməsində həlledici amilə çevrilib.

Sosial media platformalarında yayılan bəzi videoçarxlara diqqət yetirsək, insanların bir-birinə qarşı aqressiv davranışlarının geniş təbliğ olunduğunu görərik. Paralel olaraq, internet resurslarında insanların təkcə ev heyvanlarına deyil, hətta yırtıcı heyvanlara belə göstərdiyi ifrat məhəbbət səhnələri həddən artıq qabardılır. Təbiətə və canlılara sevgi ilə yanaşmaq normal insan davranışıdır. Lakin internetdə bununla bağlı məqsədyönlü şəkildə yayımlanan süjetlərin subliminal psixoloji mesaj daşıdığını nəzərə alaraq, bu hallara da xüsusi diqqət yetirməliyik.

Bəzən insanın insana etmədiyi mərhəməti heyvanın etdiyi və ya yaxınların verə bilmədiyi sevgini ev heyvanlarının bəxş etdiyi kimi süjetlər təqdim olunur. Bu cür subliminal mesajlar zamanla insanların öz sevgisini və mərhəmətini ailə üzvlərinə, yaxınlarına deyil, heyvanlara sərf etməsinə və onlarla daha çox vaxt keçirməyə can atmasına səbəb olur.

Müasir dövrdə süni intellekt (Sİ) insan zehinlərinin manipulyasiyası ilə məşğul olan bütün metodların ən mükəmməlidir və istifadə edilən vasitələrin ən "səmərəli" xüsusiyyətlərini özündə birləşdirir. Süni intellektin faydalı tərəfləri çox olsa da, onun gələcəkdə bəşəriyyətə vura biləcəyi ziyanları unutmamalı və qabaqlayıcı tədbirlər görməliyik. Sİ-nin tətbiqi nəticəsində insanların kütləvi şəkildə işsiz qalacağı, özünün real potensialını inkişaf etdirmək istəyindən əl çəkəcəyi, tənbəllik ucbatından heç bir iş görmək istəməyəcəyi ehtimalı artıq elmi dairələrdə ciddi müzakirə olunur.

Eyni zamanda, inkişaf etmiş ölkələr süni intellektin hərbi məqsədlərlə istifadəsini ciddi nəzarətdə saxlayırlar. Sİ-nin ən qorxulu cəhəti isə onun inamdan və dini inanclardan sui-istifadəyə geniş yol açmasıdır. İnternetdə bunun kifayət qədər nümunələri var. İnsanların zehninə müəyyən fikirlər yeritmək üçün elm və din xadimlərinin, hətta dövlət başçılarının səsi ilə hazırlanan, orijinalından seçilməyən saxta bəyanatlar və süjetlər hazırlanır. Sİ vasitəsilə şəxsi həyata müdaxilələr və psixoloji təsirlər nəticəsində insanları böyük güclərin maraqlarına xidmət edəcək yollara istiqamətləndirmək artıq fantastik görünmür. Bu cür addımlar real təhdid kimi qiymətləndirilməli və dövlətin kibertəhlükəsizlik mərkəzləri tərəfindən lazımi tədbirlər görülməlidir.

Bu yaxınlarda süni intellekt üzrə mütəxəssislərdən birinin səsləndirdiyi - "süni intellektə silahları və döyüş robotlarını ələ keçirməyə gərək yoxdur, Sİ asanlıqla həmin silahları idarə edən insanları istənilən əmri yerinə yetirməyə təşviq edə bilər" fikri bu barədə dərindən düşünməyə əsas verir. Sİ-nin təfəkkürün idarə olunmasına nail olmağı bacara biləcəyi kimi təhlükəli faktor gələcəkdə tükürpədici nəticələr gətirib çıxara bilər. Hesab edirik ki, gənclərin süni intellektin ancaq xeyirli imkanlarından bəhrələnməsi üçün geniş maarifləndirici işlərin aparılması məqsədəuyğundur.

Xüsusi olaraq qeyd edilməli faktorlardan biri də gənclərin, xüsusilə də uşaqların aqressivliyi, bonus qazanmaq xətrinə qarşılarına çıxanları məhv etməyi təşviq edən savaş oyunlarına həddən artıq aludə olmasıdır. Bu hal müasir dövrdə valideynlərin, pedaqoqların və psixoloqların tez-tez müzakirə etdiyi aktual problemlərdən biridir. Zaman keçdikcə populyar savaş oyunlarında qrafika və səs effektləri o dərəcədə real olacaq ki, oyunçular reallıqla virtuallaşmanın sərhədini itirəcək, hətta real həyatdakı ölümləri belə sadəcə bir oyun zənn edəcəklər.

Qeyd etmək istərdik ki, internet, qadcetlər, sosial şəbəkələr və süni intellekt kimi innovasiyaların hamı üçün əlçatan olması səbəbindən ölkənin güc strukturlarının əməkdaşları, qərar qəbul edən şəxslər və adi vətəndaşlar avtomatik olaraq koqnitiv əməliyyatların təsir obyektinə çevrilirlər.

Transmilli oyunçuların beyin mərkəzlərinin strateji planlarında qarşıya qoyduğu iki əsas amili xüsusi vurğulamaq lazımdır:

- manipulyasiyaya asan uğrayan, tez təsir altına düşə bilən insanların süni intellekt vasitəsilə müəyyən edilərək dövlət strukturlarına, xüsusilə güc strukturlarına yerləşdirilməsi və onların karyera yüksəlişinə dəstək verilməsi;
- savadlı və istedadlı gənclərin zahirdə dost görünən ölkələrin təhsil müəssisələrinə şirnikləndirici şərtlərlə cəlb edilməsi, onların içindən parlaq kadrların seçilərək həmin dövlətlərin xüsusi xidmət orqanları tərəfindən nəzarətə götürülməsi və zərurət yarandığı təqdirdə müdaxilələrin edilməsi.

Koqnitiv müharibə əməliyyatlarının ordu və güc strukturları ilə bağlı fəsadlarına da toxunmalıyıq. Ordu cəmiyyətin bir parçası olduğu üçün Silahlı Qüvvələrin mənsubları bu cür ziyanlı təzahürlərdən xüsusilə qorunmalıdırlar. Ümumi mənafenin üstün tutulmasına laqeyd yanaşılması, verilən əmrlərin müzakirə obyektinə çevrilməsi, komandanlığa qarşı inamsızlıq yaradan müzakirələrə rəvac verilməsi və pasifist düşüncələrin gənclərin qəlbinə yeridilməsi ordu quruculuğuna mənfi təsir göstərəcək. Bütün bunları nəzərə alaraq, hərbi xidmətə çağırılan, müqavilə ilə xidmət edən və hərbi məktəblərdə oxuyan gənclərlə daha effektiv iş aparılmalıdır.

Bunun bariz nümunələrindən biri ölkəmizin uğurlu ordu quruculuğu prosesini və qazandığımız şanlı Zəfərin tarixi əhəmiyyətini kiçiltməyə yönəlmiş cəhdlərdir. Zaman keçdikcə ədalətli haqq savaşımızla bağlı həqiqətlərin saxtalaşdırılması istiqamətində regiondan kənar yad qüvvələrin fəaliyyətinin artdığını sezmək mümkündür. Xoş haldır ki, ordumuzda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanılması üçün səmərəli işlər görülür, lakin təhdidlərin artdığını nəzərə alaraq, bu sahəyə diqqətin daha da artırılmalı olduğunu düşünürük.

Mütəmadi olaraq daha səmərəli psixoloji testlər keçirilməli, gənclərin daxili aləmi və maraq dairələri dərindən araşdırılmalıdır. Hərbi kollektivlərin mənəvi-psixoloji cəhətdən saflaşdırılması istiqamətində təsirli tədbirlər həyata keçirilməli, vətənpərvərlik tərbiyəsi, milli-mənəvi dəyərlərin, döyüş ənənələrinin və qəhrəmanlıq nümunələrinin təbliği daha da gücləndirilməlidir.

Unutmamalıyıq ki, manipulyasiyaya uğramış, yad ünsürlərlə zəhərlənmiş insan toplusu qarşısıalınmaz sel axını kimidir. Bu zərərli amillərdən qorunmaq üçün stabil və dayanıqlı psixologiyaya sahib nəsillərin yetişdirilməsinə nail olmaq çox vacib şərtdir. İdrak savaşlarının təzahürləri ilə mübarizədə yerli istehsal olan faydalı innovasiyalardan bəhrələnmək müsbət nəticələr verə bilər. Xarici korporasiyaların istehsal etdiyi texnologiyalara istehsalçı tərəfindən müdaxilələrin hər an mümkün olduğunu nəzərə alsaq, deyə bilərik ki, bu faktor da gələcəkdə böyük fəsadlar törədə bilər. Milli İT mütəxəssislərindən və yerli proqram təminatından istifadə xarici texnologiyalardan asılılığı da aradan qaldıracaqdır.

Əvvəlcədən görülmüş qabaqlayıcı tədbirlər, düzgün təlim-tərbiyə prosesi və milli-mənəvi dəyərlərə hörmət ruhunda böyüyən gənclərin enerjisini Vətənimizin çiçəklənməsinə yönəltmək mümkündür. Zərərli vərdişlərdən qorunmuş, mənəvi-fiziki cəhətdən sağlam böyüyən nəslin gücünü xalqın və dövlətin maraqlarına xidmət edən tərəfə istiqamətləndirməklə daim uğur qazanacağıq.

Əminik ki, sağlam təməllər üzərində böyüyən nəsillərin idrak etdiyi xalq sevgisi və vətənpərvərliyin qüdrəti Vətəni qorumağa daim qadir olacaq, ölkəmizin işıqlı gələcəyini və xalqımızın firavan yaşayışını təmin edəcəkdir.

**Eldar ABASƏTOĞLU**
**Bakı şəhəri**

# Şəhid övladları üçün təşkil olunan “Bir dastan, bir nəsil” layihəsi yekunlaşıb

*“YAŞAT” Fondunun təşkilatçılığı, Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyinin dəvəti və “Azərbaycan Hava Yolları” QSC-nin dəstəyi ilə şəhid övladları üçün təşkil olunan “Bir dastan, bir nəsil” layihəsi başa çatıb.*





Bu barədə AZƏRTAC-a Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, əsas məqsəd psixoloji dayanıqlığın və şəxsi inkişafın dəstəklənməsi, asudə vaxtın səmərəli təşkili, həmçinin yeni dostluq və ünsiyyət imkanlarının yaradılmasıdır.

Layihə çərçivəsində iştirakçılar Türkiyənin tarixi və mədəni irsi ilə tanış olmaq məqsədilə müxtəlif məkanları ziyarət ediblər.

Proqrama uyğun olaraq iştirakçılar Çanaqqalada keçirilən “Kültür yolu” Festivalına qatılıb, “Tamamilə doluyuz” tamaşasını izləyiblər. Növbəti günlərdə iştirakçılar Şəhidlər xiyabanlarını, tarixi məkanları ziyarət ediblər. Proqram çərçivəsində idman və sosial fəaliyyətlərə də xüsusi yer ayrılıb, dostluq məqsədilə bocce turniri keçirilib. Çanaqqala On Səkkiz Mart Universiteti ilə əməkdaşlıq çərçivəsində iştirakçılar üçün psixoloji mövzuda maarifləndirici görüşlər də təşkil olunub.

Layihə çərçivəsində Türkiyənin ailə və sosial xidmətlər nazirinin müavini ilə görüş keçirilib. Nazir müavini Adil Çalışkan gənclərlə görüşərək onlarla fikir mübadiləsi aparıb.

İştirakçılar İstanbul şəhərində də olublar. Onlar burada Azərbaycanın bu şəhərdəki baş konsulu Zamin Əliyev ilə görüşüblər. Türkiyə Böyük Millət Məclisinin deputatı Şamil Ayrım görüşdə iştirak edib.

Sentyabrın 1-7 tarixlərini əhatə edən layihədə 17-18 yaşlı 26 şəhid övladı iştirak edib.







# İdman

## Azərbaycan paralimpiyaçısı dünya reytinqində 8-ci pilləyə yüksəlib




Azərbaycanın bocciaçısı Sona Ağayeva dünya reytinqində 8-ci pilləyə yüksəlib.

Cənubi Koreyanın paytaxtı Seulda keçirilən dünya çempionatında BC2 kateqoriyasında bürünc medal qazanan idmançı 48 reytinq xalı əldə edib.

Bununla da xallarının sayını 74-ə çatdıran Sona Ağayeva “Los-Anceles-2028” Yay Paralimpiya Oyunlarına lisenziya verən reytinq cədvəlində 15-ci pillədən 8-ci sıraya yüksəlib.

## Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatına 38 ölkədən bilet alınıb




Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatına artıq 38 ölkədən biletlər alınıb.

Bu barədə Azərbaycan Cüdo Federasiyasının icraçı vitse-prezidenti Rəşad Rəsullu məlumat verib.

O, yarışa azarkeş marağının kifayət qədər yüksək olduğunu bildirib: “Bilet satışına başladığımız gündən həm yerli, həm də xarici cüdo həvəskarlarının fəallığını görürük. Artıq 38 ölkədən dünya çempionatına biletlər alınıb. Bu da Bakıda keçiriləcək yarışa beynəlxalq marağın yüksək olduğunu göstərən mühüm göstəricidir”.

Qeyd edək ki, dünya çempionatı oktyabrın 4-11-də Milli Gimnastika Arenasında keçiriləcək.

## Futbol üzrə Azərbaycan Kubokunda 34 komanda mübarizə aparacaq



Futbol üzrə Azərbaycan Kubokunda 2026/2027-ci illər mövsümünün püşkatma mərasiminin vaxtı müəyyənləşib.

Tədbir sentyabrın 18-də keçiriləcək. Bildirilib ki, ölkə kubokunun yeni mövsümündə 34 komanda iştirak edəcək.

## Messidən sonra Argentina millisinin yeni kapitanı bəlli olub



Futbol üzrə Argentina millisinin yeni kapitanı bəlli olub.

Lionel Messi və Nikolas Otamendi milli komandadakı karyeralarını başa vurduqları üçün yeni kapitan müəyyənləşdirilib.

Baş məşqçi Lionel Skaloni bu vəzifə üçün İspaniyanın “Atletiko” komandasının müdafiəçisi Kristian Romeronu seçib. Qərarın dünya çempionatından əvvəl qəbul edildiyi bildirilib.

Qeyd edək ki, Kristian Romero daha əvvəl üç dəfə Argentina yığmasının kapitanı kimi meydana çıxıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

## Pentaqon İran yaxınlığında 230-dan çox döyüş təyyarəsi saxlayır



ABŞ hərbi komandanlığı İran yaxınlığında 230-dan çox qırıcı və hücum təyyarəsindən ibarət taktiki aviasiya qüvvəsi saxlayır.

Bu barədə Hərbi Hava İzləmə Alyansının (MATA) məlumatlarına istinadla “Itamilradar” portalı məlumat yayıb.

Bildirilib ki, son iki həftədə Yaxın Şərqdə bəzi qırıcı eskadrilyaları rotasiya edilsə də, regiondakı ABŞ döyüş təyyarələrinin ümumi sayı azalmayıb.

Məlumata görə, ABŞ Mərkəzi Komandanlığının Yaxın Şərqdəki bazalarında 208 qırıcı və 30 A-10 hücum təyyarəsi yerləşdirilib. Təyyarələrin əsas hissəsi İordaniya, İsrail, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərindədir.

Bundan əlavə, regionda fəaliyyət göstərən iki təyyarədaşıyan gəmi və iri amfibiya gəmisində 110-dan çox qırıcı təyyarənin olduğu bildirilir.

“The Wall Street Journal”ın məlumatına görə, Pentaqon ABŞ qoşunlarının Yaxın Şərqdə yerləşdirilməsini 2027-ci ilə qədər uzadıb. Bölgədə təxminən 50 min ABŞ hərbçisi, 19 hərbi gəmi, hava hücumundan müdafiə bölmələri və çoxsaylı aviasiya qüvvələrinin saxlanıldığı qeyd olunur.

Mənbələr bunun İranla mümkün hərbi qarşıdurmanın gələn ilədək davam edə biləcəyi ehtimalı ilə əlaqəli olduğunu bildirirlər.

## Taliban ABŞ-nin Əfqanıstanda qalan silah və hərbi texnikasının qaytarılması tələbini rədd edib



Taliban hökuməti Əfqanıstanda 2021-ci ildə əvvəlki hökumətin süqutundan sonra qalmış ABŞ silahlarının və hərbi texnikasının geri qaytarılması ilə bağlı Prezident Donald Trampın tələbini yenidən rədd edib.

Bunu Əfqanıstanın Xarici İşlər Nazirliyinin sözçüsü Əbdülqəhhar Bəlxi açıqlayıb. O vurğulayıb ki, sözügedən texnika və silahlar artıq Əfqanıstan dövlətinin mülkiyyətidir və bu barədə hər hansı sövdələşmələr aparılmır.

Bəlxi ABŞ-nin Əfqanıstanda apardığı müharibəni xatırladaraq, Vaşinqtonun ölkəyə vurduğu zərərə görə əvvəlcə özü “haqq-hesab verməli” olduğunu bildirib.

ABŞ-nin Müdafiə Nazirliyinin məlumatına əsasən, 2021-ci ilin avqustunda Talibanın nəzarətinə keçən əvvəlki Əfqanıstan ordusunun sərəncamında ABŞ-nin maliyyəsi ilə alınmış təxminən 7 milyard dollar dəyərində silah və hərbi texnika olub. Tramp Ağ Evə qayıtdıqdan sonra həmin silahların qaytarılmasını dəfələrlə tələb edib.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Əliyev Zəfər Nəsib oğluna verilmiş SQ № 0030665 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Kiçik gizir Səfərov Samir İlham oğluna verilmiş AD № 0054199 nömrəli və kiçik gizir Niftalıyev Nail Rəvan oğluna verilmiş SQ № 0028155 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Məmmədov Adəm Söhbət oğluna verilmiş AD № 0060453 nömrəli və Salmanov Xəyyam Elman oğluna verilmiş AD № 0068492 nömrəli şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
mayor
Günay TAĞIYEVA

Lisenziya № 361
Sifariş № 771
Nüsxə 3653